***İdman sağlamlıq və gözəllikdir. Bəlkə, buna görə, "Sağlam bədəndə sağlam ruh olar" deyimi heç də təsadüfi deyil. Bədən tərbiyəsi və idman ümumi tərbiyənin bir hissəsi, cəmiyyətin ümumi mədəniyyətinin tərkib hissəsi, insanların sağlamlığını möhkəmlətməyə, fiziki bacarığını inkişaf etdirməyə yönəldilmiş ictimai fəaliyyət sahəsidir. İdman təkcə idmançılar arasında deyil, həm də xalqlar arasında dostluq münasibətlərinin yaranması və möhkəmlənməsində də mühüm rol oynayır. Sovetlər dönəmində Azərbaycanın müttəfiq respublikalar ilə idman əlaqələri xeyli genişlənmiş, idmanın bütün sahələrində ustalığın nümayişi və təcrübənin bölüşdürülməsi üçün əlverişli imkanlar, doğma, qardaşlıq münasibətləri olmuşdur.***



# Azərbaycanda idmanın inkişaf tarixi

## V yazı

*(Əvvəli qəzetimizin 16-cı sayında)*

1964-cü ilin oktyabrında Düşənbədə Tacikistan SSR-nin 40 illiyinə həsr edilmiş klassik güləş yarışı keçirilmişdir. Yarışda iştirak edən 29 nömrəli texniki-peşə məktəbinin şagirdi, idman ustası K.Ağayev ən yüngül çəkidə Tacikistan çempionu olmuşdur. Təmsilçilərimizdən M.Məmmədov və A.Savçenko da öz çəki dərəcələrində üçüncü yerlə kifayətlənmişdilər. Qazaxıstanın paytaxtı Alma-Ata şəhərində 1965-ci ilin sentyabr ayında Ümumittifaq atçılıq idmanı yarışları keçirilmişdi. Müttəfiq respublikaların seçmə komandalarının iştirak etdiyi bu yarışlarda başqa milli oyunlarla bərabər yarışların proqramına Azərbaycanın qədim milli idman oyunlarından olan "Sür-papaq", "Çovqan" və "Papaq" oyunları da daxil edilmişdir. Bir neçə gün davam edən gərgin mübarizə nəticəsində Azərbaycanın yığma komandası mükafatçılar sırasında yer almışdılar. Sevindirici cəhət o idi ki, Azərbaycan komandasının üzvləri Orta Asiya və Qazaxıstan xalqlarının ən sevimli milli oyunları olan "Kız-Kuu" yarışlarında dördüncü dəfə idi ki, birinci yeri tuturdular.

"Çovqan", "Papaq" və "Sür-papaq" oyunlarında iştirak edən komandamıza və Azərbaycanın yığma komandasının üzvlərinə mükafatları yarışların baş hakimi, Sovet İttifaqı Marşalı S.M.Budyonnı təqdim etmişdi.

Həmin günlərdə Alma-Ata şəhərində keçirilmiş Ümumittifaq atçılıq yarışlarında iştirak edən Azərbaycan komandasının üzvlərindən Firidun Yaqubov və Svetlana Ladoxinanın final yarışı zamanı çəkilmiş şəkilləri də qəzetdə çap olunmuşdu.

1965-ci ilin noyabrında Tacikistanda keçirilmiş ağırlıqqaldırma üzrə respublikanın açıq birinciliyində Azərbaycanın üç idmançısı Tacikistan çempionu adını qazanmışdı. Bu yarışda Tacikistan idmançıları ilə bərabər Qazaxıstan və Azərbaycanın da ən güclü atletləri iştirak etmişdilər.

Yüngül çəkidə idman ustası, Azərbaycan Universitetinin müəllimi Vəli Əliyev tacikistanlı idmançı Vladimir Umarova qalib gəlmişdi. V.Əliyev ağırlıqqaldırmanın üç növü üzrə 310 kq (95 kq+95 kq+120 kq) toplamışdı ki, bu da rəqibin nəticəsindən 5 kq artıq idi.

Tacikistanda həmin ərəfədə elə bir yüngül çəkili idmançı yox idi ki, 145 kiloqram ağırlığında ştanqı təkanla qaldıra bilsin. Ancaq bunu yarışa qoşulmuş Azərbaycan Neft və Kimya İnstitutunun tələbəsi Anatoli Kazarin bacarmışdı. A.Kazarin üç hərəkətin cəmində 367,5 kq nəticə ilə birinci yerə layiq görülmüşdü.

1966-cı ilin avqustunda Bakıda "Dinamo" Cəmiyyəti Mərkəzi Şurasının şəxsi birinciliyi uğrunda keçirilən gənc boksçuların yarışlarında dörd gün ərzində 80 idmançı rinqdə mübarizəyə qoşulmuşdular. Bu yarışda Moskvanın, Leninqradın, RSFSR-in, Azərbaycanın, Ukraynanın, Qazaxıstanın, Gürcüstanın və digər müttəfiq respublikaların idmançıları iştirak etmişlər.

Alma-Atadan gəlmiş gənc boksçu A.Abdarahmanov yarışlarda fərqlənmişdir. O, bütün döyüşləri uğurla keçirərək, birinci yarımorta çəki dərəcəsi üzrə çempion tituluna yiyələnmişdir. Bakılı idmançılardan yüngülvari çəkidə Q.Əhmədov, birinci yarımorta çəkidə R.Əbdürəhimov və ağır çəkidə M.Sukazyans ikinci yerləri tutmuşdular.

Böyük Oktyabr sosialist inqilabının (indi bu, tarixi ədəbiyyatda düzgün olaraq inqilab yox, dövlət çevrilişi kimi təqdim edilir - red) yarıməsrlik yubileyi münasibətilə Daşkənddə 1967-ci ilin aprelində respublikalararası avtomobil yarışları keçirilmişdir. Bakı avtomobil klubunun idmançıları Orta Asiya, Zaqafqaziya respublikaları və Qazaxıstanın aviamodelçiləri ilə yarışda uğurlu çıxış edərək, komanda hesabında ikinci yerə layiq görülmüşdülər. Bakı avtoklubunun yarışda iştirak edən bütün üzvləri mükafatlandırılmışdı. Yarış modelləri üzrə Oktay Əliyev birinci yeri və müxtəlif dərəcəli maşınların yarışlarında V.Mustafayev və V.Sazonenko isə iki dəfə ikinci yeri tutmuşdular.

1969-cu il Azərbaycan-Qazaxıstan idman əlaqələri baxımından iki ölkə üçün maraqlı və yaddaqalan il olmuşdur. Alma-Atada yanvarın 3-də şahmat üzrə ölkə birinciliyinə start verilmişdi. Bakılı beynəlxalq dərəcəli usta Vladimir Bağırov ikinci turda idman ustası Podqayets ilə xal bölgüsünə razılaşmışdı. Keçmiş dünya çempionu qrosmeyster Mixail Tal Tceişkovskinin "şah"ını "mat" etmişdi. Altı turdan sonra hərəyə 4,5 xal toplayan M.Tal və Saxarov liderlər mövqeyində qərarlaşmışdılar. Bakılı Vladimir Bağırovun isə aktivində 2,5 xal var idi. Ölkə birinciliyinin 9-cu turunda Moskva vilayətindən olan qrosmeyster Leynlə görüşən V.Bağırov "Siciliya müdafiəsi" variantından istifadə edərək, rəqibini məğlub etmişdi. Bu qələbədən sonra V.Bağırov 4,5 xalla, 12-13-cü yerləri bölüşdürürdü.



Həmyerlimiz V.Bağırov 15-ci turda Qazaxıstan şahmatçısı Nikitinə qalib gəlsə də, 16-cı turda gürcüstanlı Qurgenidzeyə uduzmuşdu. O, yarışları 7,5 xalla yekunlaşdırmışdı.

Yarışlarda 16 görüşdən sonra 11 xal toplayan A.Zaytsev liderliyi əldə saxlamışdı. Son ölkə çempionu L.Poluqayevski isə ondan yarım xal geri qalmışdır. Göründüyü kimi, 1969-cu il yanvarın 2-dən fevralın 5-dək Alma-Ata şəhərində keçirilən şahmat üzrə ölkə birinciliyi Azərbaycan idmançısı üçün heç də uğurlu olmamışdı. Alma-Atanın "Burevestnik" voleybol komandası ölkənin güclü kollektivlərindən biri idi. Onlar 1969-cu ilin ölkə birinciliyi yarışlarında keçirdikləri 16 görüşdən 9-da qalib gəlmişdilər. Qazaxıstan voleybolçuları Bakıda Azərbaycan Neft və Kimya İnstitutunun komandasına 3:0 hesabı ilə qalib gəlmişdilər.

1969-cu ilin martında Alma-Ata şəhərində "Spartak" cəmiyyəti mərkəzi şurasının birinciliyi uğrunda dama yarışları təşkil olunub. Yarışlarda bakılı müəllim, idman ustası Aleksandr Medvedyev oyunları məğlubiyyətsiz başa vurmaqla, birinci yeri tutmuş və 29-cu ölkə birinciliyi yarışlarının yarımfinalında çıxış etmək hüququ qazanmışdır. Azərbaycanın 16 ən güclü damaçısı respublika çempionu adı uğrunda yarışlara qoşulmuşdu. Yeddi dəfə Azərbaycan çempionu olmuş V.Şarapov, Bakı çempionu İ.Budaqov, R.Hadıyev və başqaları dəfələrlə oyunlarda heç-heçəyə razılaşmışdılar.

### İllər keçdikcə idman inkişaf edir, maddi-texniki baza daha da güclənirdi

XX əsrin 70-ci illəri Azərbaycanda idmanın inkişaf etdiyi, onun maddi-texniki bazasının gücləndiyi və respublikalararası idman əlaqələrinin genişləndiyi illərdən sayılırdı.

1970-ci il oktyabrın 26-dan 30-dək Daşkənd şəhərində SSRİ-nin Əməkdar məşqçisi L.S.Ceksonun şərəfinə həsr edilmiş V Özbəkistan SSR ənənəvi boks yarışı keçirilib. Yarış 5 min tamaşaçı tutumuna malik olan "Yubiley" idman sarayında təşkil olunmuşdu. Ənənəvi boks yarışında iştirak edən 128 boksçudan 57-si kənardan 25-i Özbəkistan vilayətlərindən (Səmərqənd, Fərqanə və b.) və 46-sı Daşkənd şəhərindən idi. Azərbaycandan həmin yarışda 7 idmançı (A.Kişiyev, M.Qədimov, A.Rəhimov, K.Babayev, R.İsmayılov, K.Qasımov, M.Niyazov) və hakimlər heyətinə daxil olan N.Hacıyev iştirak etmişdilər. Daşkənd yarışı təmsilçilərimiz üçün uğurlu nəticələrlə yadda qalmışdı.

1970-ci ildən etibarən hər il Bakıda Azərbaycan SSR Nazirlər Sovetinin mükafatı uğrunda ümumittifaq güləş yarışları keçirilməyə başlanmışdı. İlk yarış 1970-ci il dekabr ayının 18-dən 20-nə qədər Respublika stadionunda keçirilmişdir. Sərbəst güləş üzrə keçirilən bu yarışa Azərbaycan, Ukrayna, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Ermənistan, Türkmənistan və Latviya sovet respublikalarının 100 idmançısı qoşulmuşdu. Onlardan 4-ü beynəlxalq dərəcəli idman ustası, 41-i SSRİ idman ustası, 30-u SSRİ idman ustalığına namizəd və digərləri birinci dərəcəli idmançılar idilər. İki xalça üzərində keçirilən yarışı üç gün ərzində canlı şəkildə 3 mindən artıq tamaşaçı izləyə bilmişdi. Güləşçilərdən 9 nəfəri 48 kq, 9 nəfəri 52 kq, 10 nəfəri 57 kq, 12 nəfəri 62 kq, 15 nəfəri 68 kq, 8 nəfəri 74 kq, 15 nəfəri 82 kq, 7 nəfəri 90 kq, 9 nəfəri 100 kq və 6 nəfəri 100 kq-dan çox çəki dərəcələrinə aid qruplarda yarışırdılar.

Yarış zamanı zəif nəticələrə görə güləşçilərdən S.Qoqnadze (Gürcüstan), V.Zelenski (Ukrayna), zədə aldıqlarına görə F.Əliyev (Azərbaycan), S.Dzobayev (Türkmənistan) yarışı tərk etmiş, nəzakətsiz davranışa və hakimlərlə mübahisəyə görə E.Qobedjiaşvili (Gürcüstan) oyundan çıxarılmışdır.

Sərbəst güləş üzrə keçirilən yarış Azərbaycan təmsilçiləri üçün yaddaqalan olmuşdu.

*(ardı var)*

***Əzizağa Ələkbərli,***

***Azərbaycan MEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent***